# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 976; 2014, № 4, maddə 446; 2015, № 3, maddə 325; 2017, № 4, maddə 620, № 7, maddə 1500; 2018, № 11, maddə 2452; 2019, № 2, maddə 343, № 7, maddə 1355; 2020, № 1, maddə 81; 2022, № 6, maddə 690; 2023, № 4, maddə 596) ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "Magistratura səviyyəsi üzrə" bölməsində "XTM060010 Sərhəd təhlükəsizliyi və idarəetmə - Sərhəd təhlükəsizliyi və idarəetmə (sahələr üzrə)" sətri aşağıdakı redaksiyada verilsin:

"XTM060010******* Sərhəd təhlükəsizliyi və idarəetmə - Sərhəd təhlükəsizliyi və idarəetmə (sahələr üzrə)".

2. Təsnifatın sonunda göstərilmiş qeyd hissəsinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"*** Bu ixtisasa aldıqları ixtisasdan asılı olmayaraq, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində xidmət

edən ali təhsilli zabitlər Dövlət Sərhəd Xidmətinin Akademiyasının qəbul şərtlərinə uyğun olaraq magistraturaya qəbul oluna bilərlər.”.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 4 oktyabr 2023-cü il

№ 353